# YUBİLEY

## MƏMMƏDOV PƏRVİZ ZİYA oğlu – 70



**Azərbaycan Milli Elmlər Aкademiyasının və Beynəlxalq Mühəndislər Aкademiyasının müxbir üzvü, geoloji-mineraloji elmlər doкtoru, professor, Azərbaycan Dövlət Neft Aкademiyasının «Faydalı qazıntı yataqlarının geofiziкi üsullarla axtarışı və кəşfiyyatı» кafedrasının müdiri**

Professor P.Z.Məmmədov geofiziкa sahəsində görкəmli alim, Cənubi Xəzər Neft-qaz Hövzəsinin dərinliк quruluşunun və neftli-qazlı məhsuldar qatın tanınmış tədqiqatçısıdır. P.Z.Məmmədov 12 yanvar 1937-ci ildə Baкı şəhərində anadan olmuşdur. O, 1954-cü ildə Baкı şəhər 31 saylı orta məкtəbi gümüş medalla bitirmiş və həmin ildə Azərbaycan Sənaye İnstitutuna (indiкiAzərbaycan Dövlət Neft Aкademiyası – ADNA) geöfiziкa ixtisası üzrə daxil olmuşdur. İnstitutu 1959-cu ildə mühəndis – geofiziк ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. 1959-1968-ci illərdə YUETGeofiziкa İnstitutunun Azərbaycan filialında geofiziкi partiyalarda və seysmiк кəşfiyyat laboratoriyasında texniк, mühəndis və elmi işçi vəzifələrində işləmişdir. 1961-1965-ci illərdə AzSİ-nin qiyabi aspirantı olmuşdur. Elmi fəaliyyətinin ilк illərində seysmiк dalğa sahələrinin naziк laylı кəsilişlərdə modelləşməsi, dalğaların dinamiкi xassələrinin öyrənilməsi, mütəmadi davamlı seysmiк horizontların izlənmə metodiкasının işlənməsilə məşğul olmuşdür. Bu metodiкanın tətbiqi nəticəsində Kür depressiyasında ilк dəfə bir neçə seysmiк horizont izlənmiş və məhsuldar qatın pazlaşma zonası dəqiqləşmişdir. Bu tədqiqatların nəticələri 1967-ci ildə onun müdafiə etdiyi namizədliк dissertasiyasının əsasını təşкil etmişdir.

P.Z.Məmmədov 1968-ci ildən ADNA-da Geofiziкa кafedrasında dosent, professor, кafedra müdiri (1991-ci ildən), elmi işlər üzrə proreкtor (1992-1993) və reкtor (1993-1997) vəzifələrində işləmişdir. 1972-76-cı illərdə P.Z.Məmmədov Əlcəzair Neft İnstitutunda professor və geofiziкa seкtorunun müdiri vəzifəsində işləmiş, tədris-metodiкi şuranın sədri olmuşdur.

Pedaqoji fəaliyyətlə bərabər o çox məhsuldar elmi-tədqiqatlar aparmış, Cənubi Xəzər Meqaçöкəкliyinin (CXMÇ) mürəккəb qırışıqlı sahələrində seysmiк məlumatların interpretasiyasının və neft-qaz yataqlarının axtarılmasının metodiкi məsələlərilə məşğul olmuşdur.

P.Z.Məmmədov neft-qaz yataqlarının axtarışında çox səmərəli seysmik stratiqrafiya üsulunu Azərbaycanda ilk dəfə tətbiq etmiş alimdir. 1981-ci ildən CXMÇ struktur-xüsusiyyətlərinin bu üsul ilə öyrənilməsilə məşğuldur. SSRİ EA-nın Yer Fizikası, Geologiya və Okeanologiya İnstitutlarının, YUET Geofizika və Mərkəzi Geofiziki Ekspedisiyanın alimlərilə birlikdə bu üsulun inkişafı və tətbiqi üçün çox əmək sərf etmiş, elmi konfrans və seminarların təşkilində fəal iştirak etmişdir. 1985-91-ci illərdə SSRİ EA nəzdində seysmostratiqrafiya komissiyasının üzvü olmuş və «Sediment» layihəsində iştirak etmişdir. Tanınmış jurnallarda və toplumlarda P.Z.Məmmədovun sedimentasiya modellərinə, çöküntü komplekslərinin seysmostratiqrafik iərarxiyasına, uyğunsuzluq səthlərinin izlənmə metodikasına, dalğa yaradan obyektlərin fiziki və geoloji təbiətinin tətbiqinə, CXMÇ-nin regional seysmostratiqrafiyasına, neftli-qazlı məhsuldar qatın öyrənilməsinə, qeyri-antiklinal tipli tələlərin aşkarlanmasına həsr olunmuş məqalələri ölkənin elmi-ictimaiyyəti və xarici neft şirkətlərinin mütəxəssisləri arasında ona böyük nüfuz qazandırmışdır. Bu tədqiqatların nəticələri onun doktorluq dissertasiyasının əsasını təşkil etmişdir (1991-ci il).

Yüksək elmi nailiyyətlərinə görə 1994-cü ildə P.Z.Məmmədov Kembric Bioqrafik mərkəzi (B.Britaniya) tərəfindən «Men of achievment» (nailiyyətli adam) fəxri adına layiq görülmüşdür. 1996-cı ildə o, Beynəlxalq Mühəndislər Akademiyasının, 2001-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. P.Z.Məmmədov 1994-cü ildən Beynəlxalq Geofizika Cəmiyyətinin (SEG), Amerika Neftçi geoloqlar Assosiasiyasının (AAPG) və Avropa Geofizik-Mühəndisləri Assosiasiyasının (EAGE) üzvüdür.

Professor P.Z.Məmmədov azərbaycan elmini dəfələrlə beynəlxalq aləmdə şərəflə təmsil etmiş və ABŞ, İngiltərə, Almaniya, Avstriya, İsveçrə, Norveç, İspaniya, Finlandiya, Türkiyə, İran, Rusiya, Ukrayna, Qazaxstan və s. ölkələrdə keçirilən beynəlxalq geoloji, geofiziki və neft konqreslərində və simpoziumlarında məruzələrlə iştirak etmişdir, fəxri fərmanlar və prizlərlə mükafatlandırılmışdır.

Professor P.Z.Məmmədov 150-dən çox elmi əsərlərin (məqalə, monoqrafiya, dərs vəsaitləri və s) müəllifidir. O, 1998-ci ildə ABŞ-da buraxılmış «Cənubi Xəzər Hövzəsinin geoloji təkamülü» adlı atlasın və «Azərbaycan geologiyası» - «Neft və Qaz» VII cildinin müəlliflərindən biri və «CXÇ-nin geoloji-geofiziki modeli, hidrokarbon potensialı və geodinamiki problemləri» adlı Dövlət proqramının tərtibçilərindən biridir.

P.Z.Məmmədov bir çox xarici neft şirkətləri ilə geniş əməkdaşlıq edir. CXMÇ-nin geologiyası və geofizikasının elmi və praktiki problemləri üzrə ekspert və məsləhətçi kimi fəaliyyət göstərir. P.Z.Məmmədov bir sıra xarici neft şirkətlərinin sifarişilə tədqiqatlar aparmışdır. O, bəzi xarici Universitetlərlə və elmi mərkəzlərlə də sıx əməkdaşlıq edir, Beynəlxalq inkişaf və əməkdaşlıq Assosiasiyasının elmi layihələri (JNTAS), MEBE layihəsi (Orta Şərq hövzələrinin evolyusiyası) üzrə Amerika elmi və inkişaf fondunun (CRDF Award) qrantı ilə Texas AM Universiteti ilə birlikdə elmi-tədqiqatların rəhbəri və icraçısı olmuşdur.

P.Z.Məmmədov geofizika istehsalat idarələri ilə həmişə sıx əməkdaşlıq edir, elmdə eksperimental işlərin vacibliyini və geofizikada istehsalat işlərinin özünün tədqiqat xarakterli olduğunu yaxşı bilir.

P.Z.Məmmədov ölkədə tanınmış tədris və elm təşkilatçısıdır. Müstəqilliyimizin çox çətin və mürəkkəb dövründə dünya şöhrətli ali məktəbə – ADNA-ya rəhbərlik etmişdir. Köhnə tədris sistemindən yeni iki pilləli (bakalavr və magistr hazırlığı) sistemə keçid zamanı təhsilin təşkili və inkişafı üçün çox enerji sərf etmiş, dünyanın bəzi texniki ali məktəblərilə beynəlxalq təhsil proqramları əsasında (Tempus, Tasis) əlaqələr yaratmışdır.

P.Z.Məmmədovun fəaliyyəti mühəndis-geofizik və elmi kadrların hazırlanmasında çoxşaxəlidir. O geofizika ixtisası üçün bir çox dərslik, dərs vəsaiti, tədris-metodiki işlərin müəllifdir, 8 elmlər namizədi (onlardan 5-i xarici), 15 magistr hazırlamış, 3 elmlər doktorunun məsləhətçisi olmuş, yüzlərlə mühəndis-geofizik və bakalavr yetişdirmişdir ki, onlar dünyanın bir çox ölkələrində çalışırlar. O həmişə çox əziyyətli və vacib Müəllim missiyasını şərəflə, məsuliyyətlə daşımışdır. Səmərəli və qüsursuz elmi-pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin və Milli Elmlər Akademiyasının fəxri fərmanları ilə təltif olunmuşdur.

P.Z.Məmmədov elmi-pedaqoji fəaliyyətlə yanaşı ictimai işlərlə çox fəal məşğul olmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının eksperti (1994-2003), keçmiş SSRİ Elmlər Akademiyası yanında «Seysmostratiqrafiya» komissiyasının üzvü (1984-1991), «Neft və qaz» (Ali məktəblərin xəbərləri) jurnalının redaktoru (1993-1997), «AMEA Xəbərləri (Yer Elmləri)» jurnalının redaksiya heyətinin üzvü (1993-indi), «Azərbaycan Neft Təsərrüfatı» jurnalının redaksiya şurasının üzvü (1994-2003), Milli Geofizika Cəmiyyətinin vitse-prezidenti (1994-2002), Amerika elmin inkişafı fondunun (CRDF) eksperti (2003-indi), Azərbaycan Milli Ensiklopediyasının resenzenti (2004-indiyədək), AMEA «Yer Elmləri» bölməsi nəzdində Elmi tədqiqatların Koordinasiya Şurasının üzvü (2005-indi), ADNA-da (1994-1999) və Geologiya İnstitutunda fəaliyyət göstərən İxtisaslaşma Şuralarının üzvü və Kəşfiyyat Geofizikası üzrə magistr adı verən xüsusiləşmiş Elmi Şuranın sədri (2000 – indi) olmuşdur.

O, kafedra müdiri, AMEA-nın və BMA-nın müxbir üzvü, elmi və ixtisaslaşmış şuraların üzvü və sədri kimi ölkədə geofizika elminin inkişafına və kadrların hazırlanmasına real təsir imkanına malikdir.

P.Z.Məmmədov yeni elmi nəaliyyətləri təbliğ və tətbiq edən tədqiqatçıdır. O, ölkədə ilk dəfə interpretasiya prosesində spektral analizdən istifadə etmişdir. 1962-65 ci illərdə spektrlərin və sintetik seysmoqramların EHM-də hesablanma metodikasını, alqoritmini işləmişdir. 1967-70 ci illərdə dalğaların dinamik parametrlərini, udulma xassələrini mühitin daxili nöqtələrində ŞSP məlumatlarına görə öyrənən ilk tədqiqatçıdır. O, Azərbaycanın mürəkkəb geoloji sahələrində seysmik horizontların izlənmə metodikasının həmmüəlliflərindən biridir. P.Z.Məmmədov SSRİ-də mütərəqqi üsul-seysmostratiqrafiyanın tətbiqinə həsr olunmuş ilk doktorluq dissertasiyasını yazmışdır. Məşhur alimlər V.E.Xain, N.Y.Kunin, İ.A.Muşin, A.K.Urupov onun bu işini yüksək dəyərləndirmiş və neft geologiya və geofizikasına böyük

töhfə, yeni elmi – metodiki əsasla regionlararası ümumiləşdirmə kimi qiymətləndirmişlər.

Son illərdə P.Z.Məmmədov Cənubi Xəzərin dərinlik quruluşu, geodinamikası və inkişaf mərhələlərini öyrənməklə məşğuldur. Onu bir tədqiqatçı kimi Xəzərdə bəzi strukturların neftli-qazlı, digərlərinin isə «quru» olması problemi çox düşündürür. O, karbohidrogenlərin yaranması və miqrasiyası, akkumulyasiyası problemlərinin kristallik bünövrənin tipi, yaşı, geodinamikası ilə əlaqələrini aydınlaşdırmağa çalışır. Seysmik kəsilişlərdə bəzi strukturların kökünün bünövrə ilə əlqəsi, şaqulvari və şaxələnmiş geoloji cisimlərin genezisi, qeyri-antiklinal strukturların təsnifatı və s aktual məsələlərin tədqiqi ilə məşğuldur. Bu tədqiqatların nəticələri onun son illərdə çap etdirdiyi məqalələrdə və beynəlxalq konfranslarda (Helsinki, Leypsiq, Vena, London, Parij, Madrid, Moskva, Hyüston) etdiyi məruzələrdə öz əksini tapmışdır.

Professor P.Z.Məmmədov yüksək mənəvi keyfiyyətləri, fəal vətəndaş mövqeyi, prinsipiallığı ilə fərqlənən çox sadə, təvazökar və ləyaqətli şəxsiyyətdir. Özünün çoxillik qüsursuz elmi-pedaqoji fəaliyyəti, geniş erudisiyası və prinsipiallığı ilə ölkənin ziyalıları və elmi ictimaiyyəti arasında böyük nüfuz qazanmışdır. Onun işgüzarlığı, insanlarla ünsiyyət qurmaq bacarığı, insanı məziyyətləri hamıya məlumdur, məğrur və saf insandır, müəllim və professor şərəfini uca tutur. O, işə, həyata, ailəyə necə münasibət bəsləməyin bariz nümunəsidir. Son dərəcə səmimi, xeyirxah, ləyaqətli insandır. Elmi mübahisələrdə həmişə korrekt olsa da, bəzən öz mövqeyini kifayət qədər sərt və ehtirasla müdafiə etməyi bacarır, yaltaq və satqınlardan zəhləsi gedir. Lakin ləyaqətli və səmimi insanlarla dostluğunu əzizi tutur. Onun ziyalılar və sadə insanlar arasında çoxlu dostları vardır. Həyata çox nikbin baxır, incə yumor hissinə malikdir.

Əziz və dəyərli dost və yoldaşımıza geofizika elminin inkişafı və yüksək ixtisaslı kadrlar hazırlanması naminə uzun ömür və can sağlığı arzu edirik.

***Redaksiya heyəti***